# Ankarada Nümunəvi Həkim Olmağa Doğru VI Türkiyə Forumu keçirilib



Azərbaycan Respublikası Diaspora ilə İş üzrə Dövlət Komitəsi, ölkəmizin Türkiyədəki Səfirliyi və Ankarada fəaliyyət göstərən Azərbaycanlı Həkimlər Dərnəyi tərəfindən təşkil olunan forumda Azərbaycan və Türkiyədən həkim və tibb sahəsində təhsil alan tələbə, məzun və mütəxəssislər, eləcə də müxtəlif sahələrdə tanınan şəxslər iştirak edib.

Tədbirin rəsmi hissəsi Azərbaycan və Türkiyənin dövlət himnlərinin səsləndirilməsi ilə başlanıb. Sonra şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan **Azərbaycan Həkimlər Dərnəyinin rəhbəri Fərid Qasımzadə** əvvəlcə dərnəyin fəaliyyəti və 6-cısı keçirilən forum haqqında qonaqlara ümumi məlumat verib. Sonra Türkiyə Prezident Aparatı Ali Təhsil Qurumu İdarə Heyətinin üzvü, professor **Zeliha Koçak Tufan** çıxış edərək Türkiyədə təhsil alan və çalışan azərbaycanlı həkimlərin ölkədə qarşılaşdıqları problem və onların həlli yolları barədə danışıb.

Azərbaycanın Türkiyə səfiri **Xəzər İbrahim** çıxışında Azərbaycan Həkimlər Dərnəyinin əməyinə yüksək dəyər verərək bunları söyləyib:

“Təbii ki, Azərbaycan gənclərinin Türkiyədə təhsil alması çox yaxşıdır. Amma ondan da yaxşısı və sevincli olanı Türkiyə və ya dünyanın istənilən ölkəsində təhsil alan gənclərimizin Vətənə dönüb əldə etdikləri təcrübələri öz diyarlarında tətbiq etmələri, paylaşmaları və cəmiyyətin fiziki sağlığının qayğısına qalmalarıdır. Bu baxımdan nə yaxşı ki, Türkiyədə bakalavr, magistr və dissertant təhsili alan həkim gənclərimizin bir hissəsi Azərbaycana qayıdıb çalışır və ölkəmizin tibbinə dəyər qatırlar”.

Çıxışlarda Azərbaycanda səhiyyənin inkişafı sahəsində əldə olunan nailiyyətlərə geniş yer verilib. “Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi” publik hüquqi şəxsinin (TƏBİB) İdarə Heyətinin sədri Ramin Bayramlı Azərbaycan səhiyyəsində icbari tibbi sığortanın hüquqi bazası, qarşıya qoyulan məqsədlər və başlıca məqsəd barədə iştirakçıları məlumatlandırıb.

Panellər “Azərbaycanın səhiyyə sistemində və tibbi təhsildə yeniliklər”, “Türkiyədə təhsil alan və çalışan azərbaycanlı həkimlərin problemləri və həllinə dair təkliflər”, “Tibdə elmi araşdırma və nəşrlər”, “Azərbaycanda mütəxəssis həkimlər üçün iş və karyera imkanları”, “Musiqiçi və idmançıların gözündə nümunəvi həkimlik”, “Xaricdə təhsil və karyera fürsətləri” və digər əhəmiyyətli mövzuları əhatə edib.

Forumun məqsədi Azərbaycan və Türkiyənin səhiyyədə əldə etdikləri uğurlar barədə informasiya mübadiləsi, bu sahədə əməkdaşlığın genişləndirilməsi yolları və təhsilin vəziyyəti, həmçinin müasir dünyanın səhiyyə problemlərini müzakirə etmək idi.

Mərasimin bədii hissəsində Türkiyədə fəaliyyət göstərən “Xəzər Azərbaycan” Rəqs Dərnəyinin kollektivinin möhtəşəm ifası hərarətli alqışlarla qarşılanıb. Müğənni Cavid Təbrizilinin ifasında mahnılar dinlənilib.



Mərasim boyu ekranda Azərbaycanın müasir inkişafına, vətənimizin gözəlliyinə və tarixi abidələrinə aid videoçarx və Azərbaycan diasporuna həsr edilmiş “Vətən uzaqda deyil” adlı qısa film nümayiş olunub.

Qeyd edək ki, Azərbaycanlı Həkimlər Dərnəyi 17 oktyabr 2014-cü ildə Türkiyənin paytaxtı Ankarada qurulub. Bu dərnək tibb sahəsində təhsil alan və xidmət göstərən azərbaycanlı həkim, səhiyyə işçiləri və tibb tələbələrinin birlik və həmrəyliyin birləşdirmək, ehtiyac və problemləri təyin edərək həll yolları tapmaq, Azərbaycan, Türkiyə və digər ölkələrdəki səhiyyə sistemləri arasında körpü qurmaq, araşdırmalar aparmaq, sağlıq siyasətlərinə dair görüşlər keçirmək və təkliflər vermək, bütün bunlarla keyfiyyətli və təsirli səhiyyə sisteminin inkişafına töhfə vermək məqsədilə yaradılıb.

**Esmira YAZKAN ASLANOVA,**
**“Respublika” qəzetinin**
**Türkiyə üzrə müxbiri.**